II BÖLMƏ
MALİYYƏ SİSTEMİ, İNVESTİSİYA CƏLBEDİCİLİYİ VƏ MALİYYƏ MÜNASİBƏTLƏRİ

UOT 336

Elşən Əli oğlu İBRAHİMOV
iqtisad elmləri doktoru,
Azərbaycan Kooperasiya Universitetinin
“İqtisadiyyat və ekologiya mühəndisliyi”
fakültəsinin dekanı, “Maliyyə və bank işi”
kafedrasının professoru
E-mail: elwen.1977@mail.ru
10.30546/4.71.73001.2024.01

MALİYYƏ SİSTEMİNİN MODERNLƏŞDİRİLMƏSİNİN TƏŞKİLATİ-İDARƏETMƏ ASPEKTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi ölkədə milli iqtisadiyyatın modern əsaslarla inkişaf etdirilməsi çərçivəsində maliyyə sisteminin müasir reallıqlara və çağırışlara adekvat surətdə formalaşdırılmasının funksional və institusional aspektlərinin konkretləşdirilməsindən ibarətdir.

Tədqiqatın metodologiyası milli iqtisadiyyatın tənzimlənməsində maliyyə sisteminin ənənəvi yeri və rolunun, eləcə də onun təkmilləşdirilməsi və modernləşdirilməsi potensialının müqayisəli, kompleks və sistemli tədqiqinə əsaslanır.

Tədqiqatın tətbiqi əhəmiyyəti milli iqtisadiyyatın modernləşdirilməsi istiqamətində həyata keçirilən işlər çərçivəsində maliyyə sisteminin müasir və innovasiya yönümlü yanaşmalar əsasında təkmilləşdirilməsi istiqamətində tövsiyə xarakterli müddəaları özündə ehtiva etməsi ilə izah oluna bilər.

Tədqiqatın nəticələri müasir maliyyə sisteminin institusional əsasını müxtəlif alətlərə malik olan bir çox müasir maliyyə institutları təmsil etməsi və onların birlikdə iqtisadi münasibətlərə müəyyənlik və əminlik gətirərək vahid bir funksional sistem kimi çıxış etmiş olması qənaətinə gəlinməsinə imkan verir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi onun nəticələrinin maliyyə sistemində fəaliyyət göstərən təsərrüfat subyektlərinin fəaliyyətinin tənzimlənməsində, onların fəaliyyətinin səmərəliliyinin monitorinqində və maliyyə sektorunun inkişaf səviyyəsinin əsas göstəricilər sisteminin qurulmasında, sistem əhəmiyyətli maliyyə institutlarına nəzarətdə, kapitallaşma və konsolidasiya proseslərinin reqlamentləşdirilməsində, paralel bankçılıqda cəmləşən risklərin tənzimlənməsində, maliyyə sektorunun ayrı-ayrı seqmentləri arasında qarşılıqlı əlaqə sisteminin qurulmasında və vergi siyasətində istifadə edilməsi imkanları ilə izah oluna bilər.

Açar sözlər: Milli iqtisadiyyat, maliyyə sistemi, maliyyə siyasəti, modenləşdirilmə, funksional aspekt, institut, institusional yanaşma, innovativ texnologiyalar.

Giriş

Dövlətin maliyyə siyasəti daim baş verən makro, mezo və mikroiqtisadi proseslər kontekstində maliyyə sisteminin fəaliyyətinin və inkişafının xüsusiyyətlərini nəzərə almalıdır. Bu da, öz növbəsində maliyyə sistemində müasir modifikasiyalar üçün yeni yanaşmalardan istifadə etməyi zərurətə çevirməklə perspektiv inkişafa imkan yaradır.

Maliyyə sistemi çox mürəkkəb daxili struktura malik olmaqla, onun komponentləri müstəqil fəaliyyət göstərsə də, nəzərə almaq lazımdır ki, sistemin bütün komponentləri kompleks formada səmərəli fəaliyyət göstərdikdə öz effektivliyinə nail olur.

Qlobal inteqrasiya məkanının üfüqi və şaquli əlaqələrinin, ierarxik strukturların, mürəkkəb transformasiyaların prioritetləri əsasında qurulan maliyyə sisteminin fəaliyyətinə dair elmi müddəalar göstərir ki, maliyyə sisteminin müəyyən həlqələri dövlət daxilində sistemdaxili qarşılıqlı inam və institusional müdafiə rolunu həmişə effektli yerinə yetirə bilmir.

Bu baxımdan, maliyyə sisteminin effektiv surətdə fəaliyyəti dövlətin tənzimləyici institutlarının fəaliyyətindən, məqsədyönlü funksional tənzimləmələrdən və institusional siyasətdən birbaşa asılıdır. Məhz onlar maliyyə məsələlərinin bir sıra aspektləri üzrə qərarların qəbulu üzrə məsuliyyət və cavabdehlik daşıyırlar.

Belə olan təqdirdə dövlətin maliyyə siyasəti inteqrasiya proseslərinin yeni çağırışlarını tez bir zamanda nəzərə almalı, qabaqlayıcı qərarlar və tədbirlər formalaşdırmalıdır. Hansı ki, bu kimi tədbirlərin reallaşdırılması, ölkənin maliyyə sistemində dövlət siyasətinin həlledici və effektiv mexanizmi olacaqdır. Bununla yanaşı, maliyyə tənzimlənməsi və ölkədə müasir sosial-iqtisadi dəyişikliklərin institusional əsaslarla reallaşdırılması üzrə dövlət mexanizminin modernləşdirilməsi də daim diqqət mərkəzində saxlanılmalıdır. Belə ki, maliyyə mexanizminin bu kimi modernləşdirilməsi makroiqtisadi sabitliyi və dayanıqlığı təmin etməklə yanaşı, ölkənin iqtisadi inkişafına, iri, orta və kiçik biznesin mövcud potensialından istifadəyə, fərdi sahibkarlıq təşəbbüskarlığının genişləndirilməsinə və cəmiyyətin aztəminatlı təbəqələri üzrə sosial təminatlın qorunub saxlanmasına töhfə verərək yeni innovativ texnologiyaların tətbiqi yolu ilə istehsalda ekoloji təhlükəsizliyin təmin olunmasına da zəmin yaradacaqdır.

Bir çox iqtisadi transformasiyalar arasında maliyyə sisteminin, o cümlədən maliyyə bazarlarının islahatı xüsusi rol oynayır. Bu bazarlar investisiya resurslarının əhəmiyyətli və səmərəli təchizatçılarıdır və onların inkişafı iqtisadi artımın mühüm amilidir. Bu nöqteyi-nəzərdən maliyyə sisteminin iki sektorunun - bank sektorunun və bank olmayan maliyyə vasitəçiləri sektorunun funksional və institusional inkişafı problemlərinə də diqqət yetirilməsi olduqca zəruridir.

Bu halda, yeni qlobal makro proseslərin təsirini, dünya iqtisadiyyatında artım tempinin yavaşlamasını, qeyri-sabitliyin davam etməsini, qeyri-tsiklik xaotik bazar dəyişikliklərini, əvvəlki maliyyə tənzimləmə sisteminin böhranını, maliyyə sektorunda problemlərin həllinin özünəməxsusluğu, makroiqtisadi tənzimləyicilərin ümummilli maraqlara əsaslanan tədbirlərə daha tez-tez müraciət edən monetar orqanların hərəkətlərinə cəlb edilməsini nəzərə almaq lazımdır.

Maliyyə sisteminin modernləşdirilməsinin funksional aspektləri

Müasir iqtisadiyyatda maliyyə sisteminin potensialının artması əsasən maliyyə resurslarının çox hissəsinin mərkəzləşdirilməsi prosesi vasitəsilə formalaşır və möhkəmlənir. Sonradan dövlət tənzimləmə və nəzarət mexanizmlərinin köməyilə onların yenidən bölüşdürülməsi baş verir ki, bu proses də büdcə sistemi vasitəsilə həyata keçirilir. Yenidən bölüşdürülmüş maliyyə resursları bazar iqtisadiyyatı şəraitində dövlətin funksional vəzifələrinin yerinə yetirilməsinə rəvac verir ki, bu halda da maliyyə sistemi daha səmərəli və effektiv fəaliyyət göstərə bilir. Nəticə etibarilə, maliyyə sisteminin və onun tərkib hissəsi olan büdcə sisteminin resurs təminatı mexanizminin fəaliyyətinin son dərəcə zəruri olduğunu qeyd etmək olar. [5, s.73] Bu mənada, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə göstərildiyi kimi, "bunun üçün institusional mühitin keyfiyyətinin daha da yüksəldilməsi, əlçatan maliyyələşmə mənbələri, biznesin düzgün seqmentasiyası və ixtisaslaşması, makroiqtisadi siyasətin yeni çağırışlar əsasında müasirləşdirilməsi, ən başlıcası isə intensiv şəkildə yüksəkixtisaslı insan kapitalının hazırlanması tələb olunur." [1] Sözügedən normativ-hüquqi aktda eyni zamanda, istər yaxın və ortamüddətli, istərsə də uzunmüddətli dövr üçün strateji çağırışlara adekvat reaksiyalar üçün islahat gündəliyində genişmiqyaslı institusional islahatlar durduğu qeyd olunur. Həmçinin müvafiq Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə isə müəyyən olunmuş strateji hədəflər sırasında "dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması" da yer almışdır. [2]

Maliyyə sistemlərinin inkişafının, onun təşkili, idarə edilməsi və tənzimlənməsi səviyyəsinin

meyarı həm əsas seqmentlərin, həm də bütövlükdə maliyyə münasibətlərinin keyfiyyətcə yeni səviyyəyə keçidi ilə bağlı daimi modernləşmə qabiliyyəti hesab olunur. Üstəlik, maliyyə sisteminin struktur təşkili müasir tələblərə nə qədər çox cavab verirsə, onun faktiki imkanları da bir o qədər yüksək olur. Bu fenomenin təzahürləri iqtisadi transformasiyalarda özünü göstərir. Maliyyə sisteminin və maliyyə bazarlarının sistemli inkişafına maneələr onların özünü təsdiqi üçün əlverişli təşkilati və institusional şərait yaratmalı olan dövlət tənzimləməsi funksiyasında axtarılmalıdır. Bu halda dövlət idarəçiliyi sistemi isə milli iqtisadiyyatın inkişaf sürətinə uyğun olaraq daim təkmilləşdirilməlidir.

Aparılmış tədqiqatlar göstərir ki, dünyada gedən proseslərə rəğmən maliyyə sistemlərinin institusional zəifliyi ondadır ki, hələ ki, ümumi investisiyaların ikiqat transformasiyası probleminin həlli tapılmamışdır. Belə ki, birincisi, maliyyə vasitəçilərinin institusional sistemində əmanətlərin likvidlik formasına keçməsi, ikincisi, iqtisadiyyatın real sektorunda investisiya layihələrinin maliyyələşdirilməsi üçün istifadə olunan qısamüddətli likvidliyin uzunmüddətli maliyyə resurslarına transformasiyası tam təmin olunmamışdır.

Bunlar, ilk növbədə, regional və yerli səviyyədə innovasiya proseslərinə daha təsirli yardım istiqamətində fiskal sistemin stimullaşdırıcı funksiyasının, o cümlədən ilk növbədə büdcələrarası münasibətlər sferasının gücləndirilməsi üzrə mövcud olan və qismən artıq həyata keçirilmiş təkliflərlə bağlıdır. [8, s. 70] Nəticədə, regional iqtisadiyyatda investisiya və innovasiya proseslərinin dəstəklənməsi ilə bağlı eyni funksiyalar müxtəlif qurumlar tərəfindən təkrarlanır və onların səmərəli fəaliyyətini təmin etmək üçün kifayət qədər maliyyə resursları və təşkilati imkanlar öz həllini tapır. Bu kimi problemlərə görə dövlətin maliyyə, o cümlədən investisiya siyasətinin əsas məqsədlərinə aşağıdakılar aid edilməkdədir:

- əhalinin həyat səviyyəsinin ardıcıl yüksəldilməsi;
- insan kapitalına investisiyalar;
- ölkənin dünya birliyində iqtisadi və siyasi rolunun artırılması;
- investisiya fəaliyyəti üçün zəruri olan maliyyə resurslarının səfərbər edilməsi;
- investisiya aktivliyinin azalmasının qarşısının alınması;
- kapital qoyuluşlarının səmərəliliyinin artırılması.

Bununla bağlı əsas vəzifə iqtisadiyyatın real sektorunda investisiya resurslarına bazar tələbatını tam ödəyən özəl investisiyaların artmasını stimullaşdırmaqla şərait yaratmaq, eyni zamanda, xarici investorları milli iqtisadiyyata vəsait qoyuluşuna təşviq etməkdir.

Bu şərtlər daxilində dövlət investisiya siyasətinin prioritetlərinin aşağıdakı kimi səciyyələndirilməsi mümkündür:

- istehsalın köklü surətdə modernləşdirilməsi və onun struktur baxımından yenidən qurulması;
- istehsal sektorunun rəqabət qabiliyyətinin artırılması;
- iqtisadiyyatın prioritet sektorlarının sürətli inkişafını təmin etmək məqsədilə investisiyaların cəlb edilməsi ilk növbədə milli iqtisadiyyatın innovativ və informasiya sənayesinin, o cümlədən yeni texnoloji sahələrinin formalaşması.

Dövlət investisiya siyasətinin bu məqsədlərinə nail olunması isə ölkədə əlverişli investisiya mühitinin yaradılması, iqtisadiyyatın bazar sektorunda investisiya təşəbbüslərinin dəstəklənməsi, özəl investorların iqtisadi fəaliyyəti üçün qanunvericilik və institusional şəraitin yaradılması üzrə müasir bazar tələblərinə adekvat olan kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. [6, s. 86]

Araşdırmalar göstərir ki, maliyyə sistemləri və onun komponentləri - müvafiq dövlət siyasəti vasitəsilə həyata keçirilən struktur-funksional və makroiqtisadi yanaşma tələb edir. Eyni zamanda, vahid siyasi, hüquqi və təşkilati tənzimləmə mexanizmlərinin konseptual əsaslarının maliyyə sistemləri və onun ayrı-ayrı seqmentlərinin hərəkətinə uyğunlaşdırılmalı olmasına dair hər hansı rəsmi təsdiqedici dəlillər hələ ki, tam təmin edilməyib. Bu onunla bağlıdır ki, maliyyə sistemləri, maliyyə münasibətlərinin subyektləri və iştirakçıları çoxsaylı ziddiyyətləri cəmləşdirir, onların praktiki həlli mövcud maliyyə sistemi və onun komponentləri timsalında mürəkkəb bir sahənin təkmilləşdirilməsi üçün birləşdirilmiş səylər tələb edir. [5, s. 72]

Maliyyə sistemlərinin inkişafı vaxtında, operativ və düzgün qərar qəbul edilməsindən, makroiqtisadi və təkrar istehsal proseslərinin səmərəliliyi, səviyyəsi və miqyası isə maliyyə münasibətlərinin subyektlərinin maliyyə bazarlarında fəaliyyətinin hərəkətlərinin hərtərəfli əlaqələndirilməsindən asılıdır. Belə bir şəraitdə "maliyyə bazarı" termininin birölçülü kateqoriya kimi dar mənada istifadəsi müasir iqtisadiyyatın, eləcə də bütün milli iqtisadiyyatın inkişafı ilə bağlı proseslərin dərk edilməsində məhdudlaşdırıcı amilə çevrilir.

Belə ki, maliyyə bazarlarında müxtəlif proseslər və hadisələr cərəyan edir ki, bu da onları mürəkkəb təşkilati-tənzimləmə sistemi kimi qəbul etməyə imkan verir. Buna görə də, "maliyyə bazarları" terminologiyası ilə bağlı tədqiqat metodlarının, alətlərinin və mexanizmlərinin arsenalı sistem təhlilindən istifadə zərurətini ortaya çıxarır. Bütövlükdə, milli iqtisadiyyatda maliyyə prosesləri bu və ya digər formada tənzimlənir, lakin bu çoxqatlı problemin bütün sahələri sistemli və yüksək keyfiyyətli tənzimləmə ilə əhatə olunmur.

Maliyyə sisteminin modernləşdirilməsi davamlı və balanslaşdırılmış iqtisadi artıma nail olmaq kimi qlobal problemlə qırılmaz surətdə bağlıdır. Qlobal müstəvidə cərəyan edən proseslər daha dayanıqlı maliyyə sistemi yaratmaq üçün maliyyə islahatlarına və davamlı artımı dəstəkləmək üçün əhəmiyyətli dərəcədə ciddi struktur islahatlarına ehtiyac olduğunu diqtə edir. Onun istinad nöqtələri kimi isə uzunmüddətli daxili resursların səfərbər edilməsinə əsaslanan iqtisadi strukturun köklü surətdə modernləşdirilməsi, idxalı əvəzləmə siyasəti və yerli istehsalın inkişafı, istehsal məhsullarının ixracının artırılması, adekvat pul-kredit və büdcə-vergi siyasəti, antiinflyasiya tənzimlənməsi, vergilərin stabilləşdirilməsi, aktiv investisiya və innovasiya siyasəti, o cümlədən insan kapitalına investisiya, maliyyə bazarlarının inkişafı və maliyyə sisteminin modernləşdirilməsi, rəqabətin təşviqi, institusional məhdudiyyətlərin aradan qaldırılması çıxış edir.

Maliyyə sektorunun funksional vəziyyəti nəzərdən keçirilərkən burada maliyyə vasitəçiliyi seqmentləri arasında qarşılıqlı əlaqələrin də öyrənilməsi zəruridir. Bu mənada. maliyyə sektoru daxilində subyektlərin qarşılıqlı fəaliyyətini təhlil edərkən nəzərə almaq lazımdır ki, iqtisadiyyatın real sektorunun maliyyələşdirilməsi qeyri-bazar (yenidən bölüşdürmə) tipli digər mənbələrlə tamamlanır. Real iqtisadiyyatın maliyyələşdirilməsi kanalı kimi fond bazarının funksionallığını təhlil edərkən iki tendensiya - fond bazarının nisbi zəifləməsi və borc maliyyələşdirməsinin intensivləşməsi bir-birindən fərqləndirilir [3, s. 64].

Həmçinin, qeyd edilənlərlə yanaşı, bank və bank olmayan maliyyə vasitəçilərinin fəaliyyətinin funksionallığının modernləşdirilməsi çərçivəsində atılmalı olan addımlardan biri bank sisteminin konfiqurasiyasına nail olunmasıdır. Bank sisteminin konfiqurasiyasını xarakterizə edərkən qeyd etmək lazımdır ki, bankların yerləşdiyi yerdə regional institusional və funksional disproporsiyalar mövcuddur.[3, s. 28]

Bu halda bankların fəaliyyətində iki əsas funksiya üzrə intensivliyin təhlili zərurəti meydana çıxır ki, bunlara da əmanətlərin cəlb edilməsi və bankların fəaliyyət göstərdiyi coğrafi ərazilərin maliyyə dolğunluğunu xarakterizə edən kreditləşmə səviyyəsi aid edilir. Bu fonda ortaya çıxan nəticələr adətən birmənalı olur, yəni, funksional doyma təxminən institusional təhlükəsizliklə üstüstə düşür, liderlər və autsayderlər isə təxminən eyni kredit qurumları olurlar.

Bəzən ayrı-ayrı ölkələrdə milli bank seqmenti yüksək dərəcədə parçalanma ilə xarakterizə olunur. Onun daxilində ayrı-ayrı qruplar, təbəqələr və klasterlər meydana çıxır. Hər bir qrup resursların müxtəlif xərcləri və xarici borclanmaya çıxış, likvidlik səviyyələri və digər parametrlərlə xarakterizə olunur. [3, s. 30]

Ölkənin maliyyə sisteminin modernləşdirilməsi prosesində funksional yanaşmalar kontekstində reallaşdırılmalı olan istiqamətlərdən biri də mövcud sosial-iqtisadi reallıqlar nəzərə alınmaqla maliyyə sisteminin həmin reallıqlara transformasiyasına nail olunmasıdır. Bu çərçivədə bank və qeyri-bank maliyyə vasitəçilərinin funksionallığının modernləşdirilməsi özünü aşağıdakı üç istiqamətdə təcəssüm etdirə bilər:

- maliyyə vasitəçilərinin aktiv əməliyyatlarının səmərəli trendinin formalaşdırılması;
- maliyyələşdirmə strukturunun optimallaşdırılması;

- maliyyə sektorunun ayrı-ayrı seqmentlərinin qarşılıqlı fəaliyyətinin gücləndirilməsi.

Maliyyə sektorunun funksionallığının konfiqurasiyası iqtisadi inkişaf və artımın stimullaşdırılması məqsədlərinə cavab verməlidir. Bu baxımdan maliyyə vasitəçilərinin bazar azadlığı prinsiplərinə uyğun olaraq, istehlak kreditləşməsinin müəyyən qədər məhdudlaşdırılması və bankların real sektorun kreditləşməsinə daha çox istiqamətlənməsi üçün əlverişli şərait yaradılmalıdır. Həmçinin, banklar üçün onların fərdi investisiya krediti qərarları müvafiq tənzimləyici subyektin risklərin idarə olunması istiqamətində səyləri ilə dəstəklənməlidir.

Maliyyə sektorunun fəaliyyət göstəriciləri sisteminin metodoloji bazasına aşağıdakılar aid edilə bilər:

- maliyyə sektorunun inkişaf səviyyəsi göstəricilərinin strukturunun müəyyən edilməsi;
- fəaliyyət səviyyələri üzrə göstəricilərin ierarxiyasının qurulması;
- inkişaf səviyyəsinin özəl göstəricilərinin parçalanması;
- aparıcı inkişaf göstəricilərinin müəyyən edilməsi;
- maliyyə sektorunun monitorinqinə təşkilati və texniki dəstəyin təmin olunması;
- maliyyə sisteminin ayrı-ayrı seqmentləri arasında qarşılıqlı əlaqənin səmərəliliyinin konsolidə edilmiş qiymətləndirilməsi.

Göstərilən çərçivədə maliyyə sektorunun səmərəliliyinin artırılması yalnız onun daxili sabitliyini və yetkinliyini qorumaq üçün deyil, həm də, milli iqtisadiyyatın davamlı və tarazlı inkişafına töhfə verilməsi üçün zəruridir.

Maliyyə sisteminin modernləşdirilməsinə institusional yanaşmalar

Milli iqtisadiyyatın tənzimlənməsi çərçivəsində müvafiq institusional təsisatların rolu və əhəmiyyətinin əsaslandırılması ilə bağlı irəli sürülən və yenilənən nəzəri-konseptual ideyalar öz aktuallıqlarını daim qoruyub saxlamaqdadırlar. Belə ki, sosial-iqtisadi həyatın bu və ya digər tərəflərinin tədqiqində fundamental əsaslı institusional yanaşmalar ayrı-ayrı dövrlərdə iqtisadiyyat üzrə Nobel mükafatı laureatları Hünnar Mürdal, Fridrix fon Hayek, Corc Stiqler, Ronald Kouz, Robert Fogel və Duqlas Nort kimi alimlər tərəfindən formalaşdırılmışdır.

Maliyyə sistemlərinin fəaliyyəti üçün əlverişli institusional fonun yaradılmasında aparıcı rolu müvafiq seqmentlərin tənzimləyiciləri ilə təmsil olunan dövlətlər oynayır. Tədqiqatlar göstərir ki, fəal islahatlar dövründə institusional transformasiyalar kifayət qədər baha başa gəlir. Belə ki, bəzi ölkələrdə bu sahələrə yönəldilən vəsaitlər ildə Ümumi Daxili Məhsulun 2,5-3 faizinə çatdığı hallar müşahidə edilmişdir. Lakin, fikrimizcə, buna xərc kimi yox, zəruri və ödənilməli olan investisiya kimi baxmaq daha məntiqlidir.

Maliyyə sektorunda tənzimləmənin hüdudlarından bəhs edərkən söhbət tənzimləyicilərin səlahiyyətlərinin qeyri-bazar maliyyə sferasına (büdcə, vergilər) qədər genişləndirilməsindən, hətta onlara makroiqtisadi tənzimləmə funksiyalarının verilməsindən gedir. [3, s. 72]

İnstitusional yanaşma maliyyə sistemini “dövlət və qeyri-dövlət maliyyə institutları sistemi” və ya “maliyyə bazarları, maliyyə vasitəçiləri, təşkilatlar və maliyyə alətləri sistemi” kimi nəzərdən keçirməyi nəzərdə tutur ki, bu da məhdud maliyyə resurslarının müəyyən bir müddət ərzində bu resursların artıq olduğu subyektlərdən həmin resursların çatışmadığı təsərrüfat subyektlərinə verilməsi yolu ilə yenidən bölüşdürülməsinə kömək edir. [9]

Ölkədə faktiki fəaliyyət göstərən maliyyə sisteminin konkret elementlərini işıqlandıran bu yanaşmalar daha çox maliyyə sisteminin dinamik inkişafı proseslərini özündə əks etdirir.

Hazırda maliyyə sisteminin institutları yerinə yetirdikləri funksiyalara görə kifayət qədər müxtəlifdir. İnstitutların fəaliyyəti haqqında fikirlər maliyyə xidmətləri göstərən təşkilat və qurumların fəaliyyətinin həyata keçirilməsinin praktiki qaydalarını müəyyən edən subyektlər haqqında fikirləri formalaşdırır.

Beləliklə, bütün təşkilatlar birlikdə regionun və ölkənin iqtisadi sistemini təşkil edir. Onların maliyyə fəaliyyəti maliyyə axınlarının vahid mexanizmi kimi çıxış edərək, maliyyə intizamının ümumi müəyyən edilmiş və tənzimlənən qaydalarına riayət edilməsini zəruri edir. Sözügedən vəhdətə nail olunması isə maliyyə idarəetmə sisteminin komponentləri kimi qərar və öhdəliklərin

icrasına nəzarət edən maliyyə nəzarəti təşkilatlarının dəstəyi ilə mümkündür. Bu halda idarəetmə üçün ən vacib şərt isə mümkün hüquq pozuntuları ilə bağlı qəbul edilmiş qərarlara görə məsuliyyətin qiymətləndirilməsidir.

Maliyyə institutları həm milli, həm də dünya bazarlarında güclü dalğalanmalar yaradaraq, sosial-iqtisadi proseslərin tsiklik inkişafına böyük təsir göstərir. Bu kimi proseslərin nəticəsidir ki, hazırda dünya ticarət dövriyyəsinin ümumi dəyəri maliyyə institutları tərəfindən formalaşan maliyyə axınlarının dəyərindən əlli dəfədən çox azdır.

Xarici təcrübədə bu cür problemlərin həllində mühüm nəticələrin əldə olunması dövlət vəsaitlərinin dövriyyəsinin səmərəliliyinin artırılmasına, eləcə də iqtisadiyyatın prioritet sahələrində özəl investisiya resurslarının toplanmasına kömək etmək məqsədi daşıyan inkişaf institutlarına həvalə olunur. Bütün bunlar isə son nəticədə innovasiyaların istehsalata tətbiqinə öz töhfəsini verir. İnkişaf institutları dövlət tərəfindən xüsusi olaraq yaradılmış, dövlət-özəl tərəfdaşlıq mexanizmindən istifadə etməklə iqtisadiyyatda innovativ proseslərin və sosial infrastrukturun inkişafını stimullaşdırmaq üçün nəzərdə tutulmuş təşkilatlar kimi təqdim olunur.

Dünya təcrübəsi göstərir ki, inkişaf institutları iqtisadiyyatın diversifikasiyası, innovasiya məqsədli qərarların işlənib-hazırlanması və tətbiqi, uzunmüddətli maliyyələşdirmənin keyfiyyətcə yeni mexanizmlərinin formalaşdırılması problemlərini daha uğurla həll etməyə imkan verir. Son nəticədə inkişaf institutlarının fəaliyyəti iqtisadi və sosial infrastrukturun keyfiyyətinin yüksəldilməsinə kömək etməklə davamlı və tarazlı inkişafa öz töhfəsini verir.

Bu baxımdan da, müasir dövrdə inkişaf institutlarının milli iqtisadiyyatda əhəmiyyətli rolu aşağıdakı amillərlə müəyyən edilir:

- ölkənin büdcə sisteminə maliyyə axınının kəskin azalmasına səbəb olan amillərə uyğun adekvat tədbirlərin hazırlanması;
- yüksək gəlirliliyə və aşağı riskə zəmanət verə bilməyən infrastruktur layihələri yalnız dövlətin iştirakı ilə, daha doğrusu, dövlət-özəl tərəfdaşlıq yolu ilə həyata keçirilə bilər, çünki dövlətin özü də bəzi hallarda belə kapitaltutumlu layihələri müstəqil şəkildə həyata keçirmək imkanına malik deyildir. Yalnız birgə surətdə yaradılmış institutlar vasitəsilə belə layihələrin həyata keçirilməsi mümkündür;
- qeyri-müəyyənlik və risklərin səviyyəsinin artması, qlobal iqtisadiyyatın inkişafı üçün uzunmüddətli proqnozların tərtib edilməsində çətinliklər, innovativ layihələrə özəl investisiyaların səmərəli cəlb edilməsinə mane olur. Eyni zamanda, dövlət vəsaitlərin investorlara qaytarılmasının təminatçısı kimi çıxış edir ki, bu da investisiya risklərini müəyyən dərəcədə azaltmağa və investorların loyallığını artırmağa şərait yaradır;
- inkişaf institutları vasitəsilə səmərəli tərəfdaşlıq əlaqələrinin qurulması və milli şirkətlərin imicinin yaxşılaşdırılması üçün zəruri olan məlumatlar hazırlanır ki, bu da yerli istehsal məhsullarının dünya bazarlarında rəqabət qabiliyyətinin artırılmasına kömək edir və s.

Hazırda bir sıra ölkələrin təcrübəsində maliyyə inkişaf institutları qismində universal inkişaf bankları, habelə lizinq şirkətləri, regional inkişaf fondları, innovativ inkişaf institutları, o cümlədən biznes inkubatorları, strateji texnologiyaların inkişafına dəstək institutları, eləcə də prioritet inkişaf əraziləri və s. fəal şəkildə inkişaf edir.

Buradan belə bir məzmunda ümumiləşdirmənin aparılması mümkündür ki, maliyyə sektoru və onun əməliyyatları real sektorun inkişafı üçün mühüm kapital təchizatçısı olmaqla, uzunmüddətli iqtisadi artım üçün əlverişli şərait yaradır. Bununla belə, maddi və maliyyə iqtisadi seqmentlərinin dinamikasının uyğunsuzluğu inkişaf və artımın davamlılığını və tarazlığını pozur.

Maliyyənin institusional sektoru iqtisadi prosesdə yerinə yetirdikləri funksiyalara, eləcə də maliyyələşmə mənbələrinə görə yekcins olan institusional vahidlərin məcmusu kimi əsas funksiyası maliyyə vasitəçiliyi və ya köməkçi maliyyə fəaliyyəti xidmətlərinin göstərilməsi olan təsisatları əhatə edir.

Maliyyə vasitəçiliyinin potensialı birbaşa (bütün institusional sektorların iqtisadi subyektlərinin daxili yığımlarının cəmi kimi) və dolayı, struktur (Ümumi Daxili Məhsul üzrə, məcmu gəlirlə son

istehlak arasındakı fərq) metodundan istifadə etməklə müəyyən olunur. [3, s. 16]

Tədqiqatlar göstərir ki, milli maliyyə sisteminin mövcud institusional vəziyyəti nəzərdən keçirildikdə bank sektorunun da milli maliyyə sisteminin aparıcı seqmenti kimi çıxış etməsi özünü aydın surətdə göstərir. Bu baxımdan ölkəmizdə bank sisteminin regional aspekti nöqteyi-nəzərindən qiymətləndirilmə aparıldıqda və bank sisteminin konfiqurasiyasını xarakterizə edərək bankların yerləşdiyi yerdə regional, institusional və funksional disproporsiyaların mövcudluğunu xüsusilə qeyd etmək lazımdır.

Maliyyə sisteminin institusional vəziyyətinin öyrənilməsi zamanı bank sektorunun maliyyə sisteminin aparıcı seqmenti kimi fəaliyyətinin regional aspekti nəzərdən keçirilərkən sözügedən sistemin konfiqurasiyasının xarakterizə olunması məqsədilə bankların yerləşdikləri ərazilərdə mövcud olan regional, institusional və funksional disproporsiyalar mütləq surətdə nəzərə alınmalıdır. [3, s. 28]

Əhalinin sayı ilə müqayisədə bankların bu asimmetrik yerləşdirilməsi ərazilərin bank xidmətləri ilə institusional doyma dərəcəsini mübahisələndirməyə imkan verir.

Bankların regional müstəvidə fəaliyyəti nəzərdən keçirildiyi zaman burada iki mühüm funksional aspekt - əmanətlərin cəlb edilməsi və ərazilərin maliyyə dolğunluğunu xarakterizə edən kreditlərin verilməsi üzrə fəaliyyət intensivliyinin öyrənilməsi zəruridir. Bu zaman mümkün pozitiv gözlənti funksional dolğunluğun institusional təhlükəsizliklə təxminən üst-üstə düşməsi, mövcud bazarda liderlərin və autsayderlərin praktiki olaraq eyni olması kimi xarakterizə olunur.

Maliyyə vasitəçiliyinin institusional sektorunun bank olmayan maliyyə vasitəçiləri seqmenti kimi xarakterizə olunan alt sektoruna həm müqaviləli əmanətlər, həm də investisiya növləri üzrə qeyri-bank strukturları, o cümlədən sığorta şirkətləri, qeyri-dövlət pensiya fondları, paylı investisiya fondları daxildir. Keyfiyyətcə müxtəlif biznes modellərinin və funksionallıqlarının daşıyıcısı olan bu vasitəçilər maliyyə bazarında bir növ əlaqəli qurumların, uzunmüddətli pul fondlarının və iri institusional investorların birliyi kimi çıxış edirlər.

Maliyyə sisteminin modernləşdirilməsinin institusional çərçivəsi daxilində reallaşdırılması zəruri olan istiqamətlərdən biri kimi maliyyə sektorunun tənzimlənməsinin transformasiyası qeyd oluna bilər. Bu halda maliyyə sisteminin fəaliyyəti üçün ümumilikdə əlverişli institusional fonun yaradılmasında aparıcı rolu müvafiq seqmentlərin tənzimləyiciləri kimi təmsil olunan dövlət strukturları oynayır.

Həmçinin,maliyyə sektorunda institusional modernləşdirmənin əhatə etməli olduğu məsələlərdən biri də konsolidasiya proseslərinin tənzimlənməsi hesab olunur. Maliyyə institutlarının üzvi inkişafını tamamlayan tədbir kimi birləşmə, satınalma və iştirak formasında konsolidasiya rəqabət şəraitini nəzərə almaq oliqopolist strukturların formalaşmasının qarşısını almalıdır. Burada konsentrasiya yalnız institusional amil kimi deyil, eyni zamanda sənaye və maliyyə təmərküzləşməsi səviyyələrini bir-birinə yaxınlaşdıran bir vasitə kimi nəzərdən keçirilməlidir. Bu institusional boşluq iri investisiya layihələri üçün kreditləşmənin artımına maneə olmaqda davam edir.

İnstitusional tənzimləmə daxilində əməliyyat xərclərinin optimallaşdırılması və bu kontekstdə xərclərin azaldılması institusional tipin mühüm elementidir. Belə ki, xərcləri azaldan hər hansı institusional vahid iqtisadi artıma töhfə vermiş olur. Geniş mənada bazar subyektlərinin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi istiqamətində görülən bütün tədbirlər xərclərin azaldılması tədbirləri sayıla bilər. Bu istiqamətdə müvafiq tədbirlərə isə aşağıdakılar aid edilə bilər:

- geniş bazar infrastrukturunun yaradılması (maliyyə institutlarının struktur diversifikasiyası);
- qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının və mikromaliyyə təşkilatlarının məsuliyyətinin sığortasının tətbiqi;
- korporativ idarəetmənin və risklərə nəzarətin keyfiyyətinin yüksəldilməsi;
- kreditləşmə prosedurlarının və korporativ məsələlərin sadələşdirilməsi yolu ilə əməliyyat xərclərinin azaldılması, bazara giriş maneələrinin aradan qaldırılması;
- bankların və bank olmayan kredit təşkilatlarının hesabatlarının təkmilləşdirilməsi;
- investorlar və borcalanlar üçün məlumatların əlçatanlığının genişləndirilməsi və açıqlığın

təmin edilməsi, maliyyə bazarında manipulyasiyanın və insayder məlumatlardan istifadə etməklə ticarətin qarşısının alınması;
- maliyyə biznesinin aparılması üçün fürsət xərclərinin azaldılması (bahalı və lüzumsuz inzibati funksiyaların aradan qaldırılması).

Maliyyə sisteminin modernləşdirilməsinə institusional yanaşma çərçivəsində həlli zəruri olan məsələlərdən biri kimi maliyyə vasitəciləri arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi hesab oluna bilər. Sözügedən qarşılıqlı əlaqənin reallaşdırılmasının ən mühüm istiqamətləri sırasında isə aşağıdakıları göstərmək olar:

- ✓ kredit və kapitalın maliyyələşdirilməsi prinsiplərini birləşdirən simbiotik maliyyə alətlərinin inkişafı, başqa sözlə desək, bank aktivlərinin sekyuritizasiyası;
- ✓ yeni aktivlərlə iş subyektlərinin institusionallaşdırılması, başqa sözlə, aktivlərlə təmin edilmiş istiqrazlar buraxan banklar və onların alıcıları arasında vasitəçilər sinfinin yaradılmasının qanuniləşdirilməsi. Sözügedən subyektlər banklardan kredit portfeli alan və təminatlı istiqraz kreditləri verən xüsusi maliyyə şirkətləridir.

Maliyyə vasitəçiliyi sektorunun ayrı-ayrı seqmentləri arasında qarşılıqlı əlaqənin qurulmasının prinsipial əsaslarına gəldikdə, burada ilk növbədə qarşılıqlı təsirin dominant prinsiplərindən sayılan ədalətli rəqabət prinsipinin nəzərə alınması mütləq surətdə zəruridir. Qeyd olunan prinsip çərçivəsində reallaşdırılmalı olan məsələlər sırasında makroiqtisadi (kapitalın tarazlıq qiymətinin formalaşması) və institusional şərtlərlə (inhisarsızlaşdırma, dövlət müdaxiləsinin məhdudlaşdırılması və kvotalar, məhdudiyyətlər, subsidiyalar, güzəştlər, preferensiyalar (üstünlüklər), qeyri-maliyyə yardımları şəklində tənzimləyici tədbirlər) təmin edilən maliyyə vasitəçilərinin sərbəst fəaliyyəti xüsusi olaraq nəzərə alınmalıdır.

Maliyyə sektorunun inkişaf səviyyəsini xarakterizə edən göstəricilərin strukturunun əsas (baza) və köməkçi (tamamlayıcı) qruplar üzrə olmaqla aşağıdakı kimi sistemləşdirilməsi mümkündür:

- ✓ əsas (baza) göstəricilər (maliyyə sektorunun məqsədli funksiyaları, o cümlədən inkişafın və iqtisadi artımın təşviqi üçün milli maliyyə resurslarının yaradılması üzrə);
- ✓ köməkçi (tamamlayıcı) göstəricilər (maliyyə sektorunun inkişaf miqyasının qiymətləndirilməsi aspekti üzrə).

Həmçinin, maliyyə sektorunun inkişaf səviyyəsinin tamamlayıcı göstəriciləri sistemini də aşağıdakı kimi təsnifləşdirmək olar:

- maliyyə sektorunun institusional görünüşünün optimallaşdırılması;
- bankların və qeyri-bank vasitəçilərinin sayının artım tempi;
- bank şəbəkəsinin sıxlığı, yaxud bank xidmətlərinin göstərilməsi (bir bank təşkilatına düşən adam (müştəri sayı)).

Beləliklə, göründüyü kimi maliyyə sisteminin baza və tamamlayıcı göstəriciləri əslində bir-birləri ilə qarşılıqlı asılılıq əlaqəsində olan göstəricilər kimi çıxış edərək sözügedən sistemin ümumi inkişaf tendensiyasını da müəyyən etməyə istiqamətlənmiş olurlar.

Nəticə

Tədqiqatın ümumi məzmununa əsasən, belə bir qənaətə gəlmək olar ki, müasir maliyyə sisteminin institusional əsasını müxtəlif alətlərə malik olan bir çox müasir maliyyə institutları təşkil edir. Onlar birlikdə iqtisadi münasibətlərə müəyyənlik və əminlik gətirərək vahid bir funksional sistem kimi çıxış edirlər.

Ölkəmizdə müstəqil maliyyə institutlarının formalaşması yalnız XX əsrin 90-cı illərində başlamışdır və buna görə də onlar müəyyən hallarda bəzi qeyri-sabitlik ilə xarakterizə olunurlar. Bu baxımdan, fikrimizcə, maliyyə institutlarının fəaliyyətinin tənzimlənməsi və onlara nəzarətin gücləndirilməsi zəruridir. Həmçinin dövlət tərəfindən bu cür yeni qurumların fəaliyyəti üçün qaydaları müəyyən edən daha əhatəli və kompleks tənzimləməyə, o cümlədən daim təkmilləşdirilən hüquqi tənzimləməyə ehtiyac vardır.

Bundan əlavə, fikrimizcə, bir sıra ölkələrin təcrübəsində artıq uğurla tətbiq edilmiş yeni tipli

institutlar milli iqtisadi sistemdə tətbiq edilərkən, onların tədricən, ölkəmizin regionlarının və ərazi subyektlərinin xüsusiyyətləri nəzərə alınaraq milli maraqlara uyğun əvvəlcə regional müstəvidə reallaşdırılması, daha sonra isə uğurlu təcrübələrin ümumilikdə bütün ölkə üzrə yayılması məqsədəuyğun olardı.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir. / https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20XERITESI.pdf
2. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir. / https://azertag.az/store/files/news/MALIYYE%20STRATEJI%20YOL.pdf
3. Алисенов А.С., Дворецкая А.Е. Институциональная и функциональная модернизация финансовой системы. Москва 2014 / https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=2444145
4. Бренделева Е.А. Институциональные аспекты модернизации. Модернизация России и человеческий капитал. / https://www.vestnik.mgimo.ru/jour/article/download/2387/1928
5. Воробьев Ю.Н., Борщ Л.М. Финансовая система: комплексный подход в контексте государственной финансовой политики. Финансы: теория и практика. 2018;22(5):56-75 / https://financetp.fa.ru/jour/article/download/752/515
6. Медведева С.Н., Кутузова Т.Ф. Финансы: Учебное пособие. СПб ГУАП. 2017. 357 с.
7. Побережников И.В. Модернизация: теоретико-методологические подходы // Экономическая история. Обозрение / Под ред. Л.И.Бородкина. Вып. 8. М., 2002. С. 146-168 / http://www.hist.msu.ru/Labs/Ecohist/OB8/poberej.htm
8. Подстригич А.В. Институциональные аспекты модернизации регионального звена российской экономики. /https://cyberleninka.ru/article/n/institusionalnye-aspekty-modernizatsii-regionalnogo-zvena-rossiyskoy-ekonomiki/pdf
9. Уткина О. Институционная основа современной финансовой системы. Московский экономический журнал 6/2020 / https://qje.su/ekonomicheskaya-teoriya/moskovskij-ekonomicheskij-zhurnal-6-2020-16/

Эльшан Али оглы Ибрагимов
доктор экономических наук,
декан факультета «Экономика и экологическая инженерия»
Азербайджанского Университета Кооперации,
профессор кафедры «Финансы и банковское дело»
E-mail: elwen.1977@mail.ru

Организационно-управленческие аспекты модернизации финансовой системы

Резюме

Цель исследования - конкретизирование функциональные и институциональные аспекты формирования финансовой системы, адекватные современным реалиям и задачам в рамках развития национальной экономики страны на современной основе.

Методология исследования основана на сравнительном, комплексном и систематическом изучении традиционного места и роли финансовой системы в регулировании национальной экономики, а также возможностей ее совершенствования и модернизации.

Прикладная значимость исследования объясняется тем, что оно содержит рекомендации по совершенствованию финансовой системы на основе современных и инновационно

ориентированных подходов в рамках работ, проводимых в направлении модернизации национальной экономики.

Результаты исследования позволяют сделать вывод, что институциональная база современной финансовой системы представлена множеством современных финансовых институтов с различными инструментами и что вместе они выступают как единая функциональная система, внося определенность и определенность в экономические отношения.

Оригинальность и научная новизна исследования заключается в регулировании деятельности хозяйствующих субъектов, осуществляющих деятельность в финансовой системе, мониторинге эффективности их деятельности и установлении системы ключевых показателей уровня развития финансового сектора, контроля системно значимых финансовых институтов. Регулируя процессы капитализации и консолидации, а также риски, сосредоточенные в параллельном банковском, финансовом секторе, можно объяснить возможностью его использования в налаживании системы взаимодействия между отдельными его сегментами и в налоговой политике.

Ключевые слова: национальная экономика, финансовая система, финансовая политика, модернизация, функциональный аспект, институт, институциональный подход, инновационные технологии.

Elshan Ali oglu Ibrahimov
doctor of economic sciences,
Dean of the Faculty of "Economics and Environmental Engineering" of the Azerbaijan Cooperation University,
Professor of the "Finance and Banking" department,
E-mail: elwen.1977@mail.ru

Organizational and managerial aspects of modernization of the financial system

Summary

The purpose of the research is to specify the functional and institutional aspects of the formation of the financial system adequately to modern realities and challenges within the framework of the development of the national economy in the country on a modern basis.

The research methodology is based on a comparative, complex and systematic study of the traditional place and role of the financial system in the regulation of the national economy, as well as the potential for its improvement and modernization.

The applied importance of the research can be explained by the fact that it contains recommendations for the improvement of the financial system based on modern and innovation-oriented approaches within the framework of the works carried out in the direction of the modernization of the national economy.

The results of the research allow us to conclude that the institutional base of the modern financial system is represented by many modern financial institutions with various instruments and that together they act as a single functional system, bringing certainty and certainty to economic relations.

The originality and scientific novelty of the research results in regulating the activities of economic entities operating in the financial system, monitoring the efficiency of their activities and establishing a system of key indicators of the level of development of the financial sector, controlling systemically important financial institutions, regulating capitalization and consolidation processes, regulating risks concentrated in parallel banking, financial sector can be explained by the possibility of using it in establishing a system of interaction between its separate segments and in tax policy.

Key words: National economy, financial system, financial policy, modernization, functional aspect, institution, institutional approach, innovative technologies.